# Beynəlxalq Cinayət Məhkəməsinin Fəaliyyətinin Təşkilati Hüquqi Məsələləri

**Qurbanov Orxan**
*Transmilli Cinayət Hüququ ixtisasının magistrantı,*
*Bakı Dövlət Universiteti Hüquq fakültəsi*

**Açar sözlər: Beynəlxalq Cinayət Məhkəməsi, Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutu, Məhkəmənin strukturu və idarəçiliyi, Rəyasət heyəti, Prokuror dəftərxanası, Apellyasiya şöbəsi**

Beynəlxalq Cinayət Məhkəməsinin Statutu öz məzmununa görə maddi cinayət hüququ, prosessual-cinayət hüququ, cəza-icra hüququ və o cümlədən, məhkəmənin təşkilini və quruluşunu tənzim edən təşkilati-hüquqi normalardan ibarət mürəkkəb hüquqi aktdır. Roma Statutunun belə bir özəlliyə malik olması tarixi inkişaf baxımından müstəqil beynəlxalq cinayət-prosessual hüquq normalarının inkişaf etməməsi ilə bağlıdır. Professor Antonio Kassezenin dili ilə desək, məhz belə bir reallıq sonda bu normaların maddi beynəlxalq cinayət hüquq normaları ilə birlikdə təsbit olunmasına gətirib çıxarmışdır (5, s.15). Statutun IV hissəsi Məhkəmənin təşkili və idarəçiliyi ilə bağlı məsələlərin hüquqi tənzimlənməsinə həsr olunmuşdur. Həmin fəslin 34-cü maddəsinə əsasən, Məhkəmə öz fəaliyyətini həyata keçirmək üçün aşağıdakı orqanlardan ibarət struktura malikdir: a) Rəyasət Heyəti; b) Apellyasiya şöbəsi, Məhkəmə şöbəsi və İlkin icraat şöbəsi; c) Prokuror dəftərxanası; d) Katiblik (2, s.42). 26 mart 2015-ci ildə Beynəlxalq Cinayət Məhkəməsinin fəaliyyətinə həsr olunmuş 25-ci diplomatik brifinqdə məhkəmənin sədri Silviya Fernanades de Qurmendi məhkəmənin işinin səmərəliliyini onun struktur bölmələrinin işinin düzgün qurulması və qarşılıqlı fəaliyyət göstərməsi ilə əlaqələndirmişdir (4, s.54).

Beynəlxalq Cinayət Məhkəməsinin əsas orqanlarıdan biri onun Rəyasət Heyətidir. Lakin Statut Rəyasət Heyətinin statusunu dəqiq müəyyən etməmiş, sadəcə onun Prokuror dəftərxanası istisna olmaqla məhkəmənin işlərinin lazimi qaydada idarə olunması ilə əlaqədar funksiyalarını müəyyən etmişdir (3, s.42). Rəyasət Heyəti həmçinin məhkəmənin işinin həcmi yol verirsə, istənilən vaxt hakimlərin sayını 18-dən az olmamaq şərti ilə azaldılmasını təklif edə bilər. Bu cür təklif qəbul olunduqdan sonra hakimlərin sayı tədricən, fəaliyyətdə olan hakimlərin səlahiyyət müddətinin bitməsi vaxtı ilə zəruri həddə qədər azaldılır. Statutun 38-ci maddəsinə müvafiq olaraq, Rəyasət Heyətinə sədr və sədrin birinci və ikinci müavinləri hakimlərin mütləq əksəriyyətinin səs çoxluğu ilə seçilirlər. Onlar öz funksiyalarını 3 il müddətində və yaxud bu müddətlərdən hansının tez bitməsindən asılı olaraq özünün hakim kimi səlahiyyətlərinin bitməsinə qədər icra edirlər. Lakin onlar bir dəfə yenidən seçilə bilərlər. Əgər sədr yoxdursa və ya kənarlaşdırılmışdırsa, sədrin birinci müavini sədri əvəz edir. Əgər sədr və ya sədrin birinci müavini yoxdursa və ya kənarlaşdırılmışdırsa, o zaman sədrin ikinci müavini sədri əvəz edir. Qeyd edək ki, sədr və sədrin birinci və ikinci müavinləri Rəyasət Heyətini təşkil edir və onlar aşağıdakılara görə cavabdehlik daşıyırlar: a) Prokuror istisna olmaqla məhkəmənin işlərinin lazimi qaydada idarəçiliyi; və b) Statutla üzərlərinə qoyulmuş digər funksiyalara. Özünün vəzifələrini yerinə yetirərkən Rəyasət Heyəti prokurorla fəaliyyəti əlaqələndirir və sonuncu ilə qarşılıqlı maraq kəsb edən bütün məsələlərdə razılaşmanı təmin edir. Rəyasət Heyətinə daxil olan hakimlər öz funksiyalarını seçildikləri andan daimi əsaslarla yerinə yetirirlər. Rəyasət Heyəti məhkəmənin işinin həcmini nəzərə alaraq və məhkəmənin hakimləri ilə məsləhətləşmələr əsasında vaxtaşırı digər hakimlərdən hansı həcmdə öz funksiyalarını daimi əsaslarla yer-

inə yetirmək tələb olunması barədə qərar qəbul edə bilər.

Bütün hakimlər öz səlahiyyətlərini daimi əsaslarla yerinə yetirən məhkəmə üzvü kimi seçilirlər və öz səlahiyyətlərinin başlandığı vaxtdan bu əsaslarla öz funksiyalarını yerinə yetirmək üçün məhkəmənin sərəncamında olurlar. Məhkəmə 18 hakimdən ibarət olan tərkibdə fəaliyyət göstərir. Onu da qeyd edək ki, məhkəmənin Rəyasət Heyəti onun adından çıxış edərək lazımlığı, yaxud zəruriliyi səbəblərini göstərməklə hakimlərin sayının artırılması barədə təklif qəbul edə bilər. Katib təxirə salınmadan hər hansı bu cür təklifi bütün iştirakçı dövlətlər arasında yaymalıdır. Təklifə sonradan iştirakçı-dövlətlərin Assambleyasının iclasında baxılır. Bu cür təklif iştirakçı-dövlətlərin iclasında 2/3 səs çoxluğu ilə bəyənilirsə, qəbul edilmiş sayılır və iştirakçı-dövlətlərin Assambleyasının qərarı ilə müəyyən olunmuş vaxtda qüvvəyə minir.

Beynəlxalq Cinayət Məhkəməsinin hakimi vəzifəsinə iddia edən hakim-namizəd üçün Statutda bir sıra tələblər nəzərdə tutulmuşdur. Hakimlər onların namizədliyini irəli sürdüyü dövlətlərdə ali hakim vəzifəsinə təyin olunmaq üçün tələblərə cavab verən, qərəzsiz və müstəqil, yüksək mənəvi keyfiyyətlərə malik olan şəxslər sırasından seçilirlər. Məhkəmənin tərkibinə seçilmək üçün hər bir namizəd aşağıdakılara malik olmalıdır:1) cinayət və cinayət-prosessual hüquq sahəsində mötəbər səriştəyə və cinayət mühakimə sahəsində hakim, prokuror, vəkil və ya başqa analoji keyfiyyətdə zəruri iş təcrübəsinə; 2) beynəlxalq humanitar hüquq, insan hüquqları kimi müvafiq beynəlxalq hüquq sahələrində mötəbər səriştəyə, həmçinin məhkəmənin fəaliyyət predmetinə aid olan peşəkar hüquq fəaliyyətində geniş təcrübəyə. Bundan əlavə hər bir namizəd məhkəmənin tərkibinə seçilmək üçün ən azı məhkəmənin işgüzar dillərindən birini bilməli və o dildə sərbəst danışmalıdır (Statutun 36-cı maddəsi).

Məhkəmənin tərkibinə seçilmək üçün namizəd Statutun iştirakçısı olan hər bir dövlət tərəfindən, yaxud bu dövlətdə mövcud olan məhkəmə vəzifəsinə təyin edilməsi üçün namizədin irəli sürülməsinə uyğun olaraq və ya Beynəlxalq Məhkəmənin Statutunda Beynəlxalq Məhkəmənin tərkibinə namizəd irəli sürülməsi üçün nəzərdə tutulan prosedurlara uyğun olaraq irəli sürülür. Seçkilər keçirilən zaman hər bir iştirakçı dövlət bu dövlətin vətəndaşı olması məcburi olmayan, lakin hər bir halda hər hansı üzv dövlətin vətəndaşı olan bir namizəd irəli sürə bilər. Seçkilərin keçirilməsi üçün namizədlərin 2 siyahısı tərtib edilir. A siyahısı cinayət və prosessual hüquq sahəsində mötəbər səriştəyə və cinayət mühakiməsi sahəsində hakim, prokuror, vəkil və ya başqa analoji keyfiyyətdə zəruri iş təcrübəsi olmaq kimi tələblərə cavab verən namizədlərin adlarından ibarət tərtib edilir. V siyahısı beynəlxalq humanitar hüquq, insan hüquqları kimi müvafiq beynəlxalq hüquq sahələrində mötəbər səriştəyə, həmçinin məhkəmənin fəaliyyət predmetinə aid olan peşəkar hüquq fəaliyyətində geniş təcrübəyə malik olmaq kimi tələblərə cavab verən namizədlərin adlarından ibarətdir. Hər iki siyahı üçün kifayət edən keyfiyyətlərə malik olan namizəd hansı siyahıya düşməsini öz seçiminə görə müəyyən edə bilər. Məhkəmənin tərkibinə ilk seçkilərdə «A» siyahısından doqquzdan az olmayaraq «V» siyahısından isə beşdən az olmayaraq hakimlər seçilir. Sonrakı seçkilər məhkəmənin tərkibində A və V siyahısından keçmiş hakimlərin proporsiyalarını saxlamaq üçün keçirilir. Hakimlər istirakçı dövlətlərin Assambleyasının iclasında gizli səsvermə yolu ilə seçilir. Qeyd edək ki, səsvermədə olan və iştirak edən iştirakçı-dövlətlərin 2/3-dən çoxunun daha artıq səsini qazanmış 18 namizəd məhkəmənin tərkibinə seçilmiş hesab edilir. Əgər birinci turda səsvermənin gedişində lazımi sayda hakim seçilməmişdirsə, qalan yerlər dolana kimi növbəti səsvermə turları keçirilir. Məhkəmənin tərkibində eyni bir dövlətin iki vətəndaşı ola bilməz. Məhkəmənin tərkibinə münasibətdə iki və daha artıq dövlətin vətəndaşı hesab edilə bilən şəxs bu şəxsin, adətən öz mülki və siyasi hüquqlarından istifadə etdiyi dövlətin vətəndaşı sayılır. İştirakçı dövlətlər hakimlərin seçilməsi zamanı məhkəmənin üzvlərinin tərkibində aşağıdakıların təmin olunmasının zəruriliyini nəzərə alır:1) dünyanın əsas hüquq sistemlərinin təmsil olunması; 2) ədalətli coğrafi təmsilçilik; 3) məhkəmənin tərkibində qadın və kişi cinslərində ədalətli təmsilçiliyi.

İştirakçı- dövlətlər məhkəmənin tərkibində xüsusi məsələlər üzrə, o cümlədən, qadınlara, yaxud uşaqlara qarşı zor tətbiqinə dair məsələlər üzrə hüquqi fəaliyyət təcrübəsinə malik olan şəxslərin olmasının zəruriliyini

nəzərə alır, lakin bununla məhdudlaşmırlar.

Hakimlər öz vəzifələrində 9 il qalırlar və yenidən seçilməsi hüququna malik deyildirlər. İlk seçkilərdə hakimlərin püşkatma ilə seçilən 1/3 hissəsi vəzifələrində 3 il müddətində qalırlar; hakimlərin püşkatma ilə seçilən 1/3 hissəsi vəzifələrində 6 il müddətinə qalırlar, yerdə qalanlar isə vəzifələrində 9 il müddətində qalırlar. Lakin 3 il müddətinə seçilmiş hakim tam müddətdə yenidən seçilmək hüququna malikdir. Əgər vakansiyalar açılarsa, onların tutulması üçün Statuta uyğun olaraq seçkilər keçirilir. Vakansiyanı doldurmaq üçün seçilmiş hakim öz sələfinin səlahiyyət müddəti bitənədək vəzifədə qalır və əgər bu müddət 3 ildən azdırsa, tam müddətə yenidən seçilə bilər.

Hakimlər öz funksiyalarını yerinə yetirərkən müstəqildirlər. Hakimlər onların hakimlik funksiyalarını yerinə yetirməyə mane olan, yaxud onların müstəqilliyinə şübhə doğura bilən heç bir fəaliyyətlə məşğul olmurlar. Məhkəmənin olduğu yerdə öz funksiyalarını daimi əsaslarla yerinə yetirməsi tələb olunan hakim özünü heç bir digər professional xarakterli məşğuliyyətə həsr etməməlidir. Rəyasət Heyəti Prosedur və Sübutetmə Qaydalarına müvafiq olaraq hakimi öz xahişi ilə Statutla üzərinə qoyulmuş funksiyaları yerinə yetirməkdən azad edə bilər.

Hakim bu və ya digər əsaslarla onun qərəzsizliyinin məntiqi şübhə altına qoyula biləcəyi ilə bağlı işə baxılmasında iştirak etmir. Bunlardan başqa, əgər bu hakim əvvəllər həmin işə məhkəmədə hər hansı formada, yaxud milli səviyyədə bu işə aid istintaq altında olan və ya məhkəmə təqibinə məruz qalmış şəxsin iştirakı ilə bağlı olmuşsa, həmin bəndə müvafiq olaraq işə baxılmasından kənarlaşdırılır. Prokuror, yaxud istintaq altında olan, yaxud haqqında məhkəmə araşdırılması aparılan şəxs Statuta uyğun olaraq hakimə etiraz barədə vəsatət verə bilər. Etiraz edilən hakimə həmin məsələ üzrə qeydlərini təqdim etmək hüququ verilir, lakin o qərar qəbul edilməsi prosesində iştirak etmir (40 və 41-ci maddələr).

Məhkəmənin Statutunda şöbələrin statusu müəyyən edilməmişdir, lakin onu qeyd etmək lazımdır ki, şöbələrin məhkəmə çərçivəsində funksiyalarını onun palataları: Apellyasiya palatası, Məhkəmə palatası və İlkin icraat palatası həyata keçirir. Eyni zamanda, Məhkəmənin işinin həcmini, onun səmərəli fəaliyyətinin zəruriliyi yarandığı hallarda Statut iki və ya daha çox Məhkəmə palatalarının və ya İlkin icraat palatalarının yaradılması imkanına yol verir (6, s.1011). Hakimlərin seçilməsindən sonra mümkün qədər tez məhkəmə öz tərkibində şöbələr təşkil edir. Apellyasiya şöbəsi sədr və daha 4 hakimdən, Məhkəmə şöbəsi azı 6 hakimdən, İlkin icraat şöbəsi də azı 6 hakimdən ibarət olur. Hakimlərin şöbələrin tərkibinə təyin olunması hər bir şöbənin üzərinə qoyulan funksiyaların xarakteri, hər bir şöbədə cinayət hüququ və prosesi və beynəlxalq hüquq sahəsində mütəxəssis olan optimal sayda hakimin ola bilməsi üçün seçilmiş hakimlərin səriştəsi və təcrübəsi nəzərə alınmaqla həyata keçirilir. Lakin Məhkəmə şöbəsi və İlkin icraat şöbəsi başlıca olaraq, cinayət işləri üzrə məhkəmə araşdırmalarının aparılması sahəsində təcrübəyə malik olan hakimlərdən ibarət olur. Məhkəmənin məhkəmə funksiyaları hər bir şöbədə Palatalar tərəfindən həyata keçirilir (mad.39). Apellyasiya Palatası Apellyasiya şöbəsinin bütün hakimlərindən ibarət olur. Məhkəmə Palatasının funksiyaları məhkəmə şöbəsinin üç hakimi tərəfindən həyata keçrilir. Həmçinin İlkin İcraat Palatasının funksiyaları məhkəmə şöbəsinin üç hakimi tərəfindən ya da Statuta və Sübutetmə və Prosedur Qaydalarına uyğun olaraq şöbənin bir hakimi tərəfindən həyata keçirilir. Apellyasiya şöbəsinə təyin olunmuş hakimlər isə bu şöbədə öz funksiyalarını bütün səlahiyyət müddətləri ərzində həyata keçirirlər.

Beynəlxalq Cinayət Məhkəməsinin təşkilati strukturuna daxil olan həlqələrdən biri də Prokuror dəftərxanasıdır. Statutun 42-ci maddəsinə əsasən Prokuror dəftərxanası Məhkəmənin ayrıca orqanı kimi müstəqil fəaliyyət göstərir. Prokuror dəftərxanası məhkəmənin yurisdiksiyası altına düşən cinayətlər haqqında hər hansı informasiya və təqdim edilmiş situasiyaların alınmasına, onların öyrənilməsinə, məhkəmədə istintaqın və cinayət mühakiməsinin həyata keçirilməsinə cavabdehlik daşıyır. Dəftərxananın əməkdaşları hər hansı xarici mənbədən göstərişlər tələb etmir və onları yerinə yetirmirlər. Bir sıra tədqiqatçıların qeyd etdiyi kimi, Beynəlxalq Cinayət Məhkəməsinin Statutu prokurora cinayət işlərinin təhqiqatı və istintaqında prosessual müstəqillik verməklə onu beynəlxalq cinayət ədliyyəsində xüsusi subyektə çevirmişdir (1,s.57).

Dəftərxanaya prokuror tərəfindən rəhbərlik edilir. Prokuror şəxsi heyət, bina və onun

sərəncamında olan sair ehtiyatlar da daxil olmaqla, dəftərxanaya rəhbərlik və idarəetmə üzrə bütün səlahiyyətlərə malikdir. Prokurora, Roma Statutuna müvafiq olaraq, prokurorun yerinə yetirməli olduğu hər hansı hərəkəti yerinə yetirmək səlahiyyətinə malik olan bir və ya bir neçə prokuror müavini köməklik göstərir. Prokuror və prokuror müavini müxtəlf dövlətlərin vətəndaşları olmalıdır. Prokuror və prokuror müavinləri yüksək mənəvi keyfiyyətlərə, yüksək ixtisasa və cinayət işləri üzrə təhqiqat, yaxud istintaqın aparılması sahəsində geniş praktiki təcrübəyə malik olan şəxslər olmalıdırlar. Onlar məhkəmənin işgüzar dillərindən azı birini tam bilməli və onda sərbəst danışmalıdır. Prokuror iştirakçı- dövlətlərin Assambleyasının üzvlərinin mütləq səs çoxuğu ilə, gizli səsvermə yolu ilə seçilir. Prokurorun müavinləri prokuror tərəfindən təqdim edilmiş namizədlər siyahısından eyni qaydada seçilirlər. Prokuror hər bir prokuror müavini vəzifəsinə təyin olunmaq üçün 3 namizəd irəli sürür. Əgər onların seçilməsi zamanı daha qısa səlahiyyət müddəti nəzərdə tutan qərar qəbul olunmazsa, prokuror və prokuror müavinləri doqquz il müddətinə seçilirlər və yenidən seçilə bilməzlər. Nə prokuror, nə də prokurorun müavinləri funksiyalarının yerinə yetirilməsinə mane ola bilən, yaxud onların müstəqilliyini şübhə altına alan heç bir fəaliyyətlə məşğul olmurlar. Onlar peşə fəaliyyətinin başqa heç bir növü ilə məşğul olmurlar. Rəyasət Heyəti prokuroru, yaxud onun müavinini onun öz xahişi ilə bu və ya digər konkret işdə iştirak etməkdən azad edə bilər. Nə Prokuror, nə də prokuror müavinləri hər hansı bir əsasla onların qərəzsizliyini məntiqi şübhə altına ala bilən heç bir işdə iştirak etmirlər. Əgər onlar əvvəllər bu işdə məhkəmədə, yaxud istintaq altında olan və ya məhkəmə təqibinə məruz qalmış şəxsə aidiyyatı olan, bu işlə əlaqəli cinayət işinə milli səviyyədə baxılarkən hər-hansı keyfiyyətdə iştirak etmişdirsə, onlar işdə iştirak etməkdən kənarlaşdırılır. Beynəlxalq Cinayət Məhkəməsinin Statutunun müəyyən etdiyi prinsipdən göründüyü kimi prokuror və onun müavinlərinin müstəqilliyi özünü onda təzahür edir ki, onlar məhkəmə tərəfindən deyil, Statutun iştirakçısı olan dövlətlər tərəfindən seçilirlər.

Beynəlxalq Cinayət Məhkəməsinin digər orqanı Katiblikdir. Katiblik prokurorun Statutda nəzərdə tutulan funksiya və səlahiyyətlərinə ziyan gətirmədən, məhkəmədə işlərin idarə olunması və məhkəməyə xidmətin qeyri-məhkəmə aspektlərinə cavabdehlik daşıyır (maddə 43). Katibliyə Məhkəmənin əsas inzibati vəzifəli şəxsi olan katib rəhbərlik edir. Katib öz funksiyalarını məhkəmənin sədrinin rəhbərliyi altında həyata keçirir. Katib və katibin müavini yüksək mənəvi keyfiyyətlərə, yüksək səriştəyə malik olur və məhkəmənin işgüzar dillərindən heç olmasa birini tam bilir və o dildə sərbəst danışır. Hakimlər iştirakçı -dövlətlərin Assambleyasının istənilən tövsiyəsini nəzərə almaqla, katibi gizli səsvermə ilə mütləq səs çoxluğu ilə seçirlər. Katib 5 illik səlahiyyət müddətinə seçilir, bir dəfə yenidən seçilə bilər və tam məşğulluq əsasında işləyir. Statutun 44-cü maddəsinə müvafiq olaraq, prokuror və katib öz müvafiq orqanlarına lazımi qədər səriştəli şəxsi heyət təyin edirlər. Prokurora münasibətdə bu müstəntiqlərin təyinatını da əhatə edir. Katib Rəyasət Heyətinin və prokurorun razılığı ilə məhkəmə heyətinin təyinatı, mükafat alması və işdən azad olunması şərtlərini ehtiva edən şəxsi heyət haqqında Əsasnamə təklif edir və şəxsi heyət haqqında Əsasnamə iştirakçı dövlətlərin Assambleyasında bəyənilir. Buradan belə bir nəticəyə gəlmək olar ki, Beynəlxalq Cinayət Məhkəməsində inzibati-texniki funksiyaların həyata keçirilməsi məhkəmənin yerinə yetirdiyi funksiyaların xüsusi xarakteri ilə şərtləşməklə onun iki orqanı arasında bölünmüşdür.

Roma Statutunun on birinci hissəsi məhkəmənin strukturuna aid olmasa da, lakin onun funksiyalarının təmin olunmasına xidmət edən bir qurumun yaradılmasını nəzərdə tutur. Söhbət Statutun iştirakçı-dövlətlərinin Assambleyası haqqında gedir. İştirakçı dövlətlərinin Assambleyası bir növ məhkəmə orqanlarından kənar müstəqil orqan kimi özündə: sədr, sədrin iki müavini və üç il müddətinə Assambleya tərəfindən seçilmiş 18 üzvdən və habelə Bürodan ibarətdir. Assambleya yoxlama, qiymətləndirmə və istintaq aparılmasında məhkəmənin effektivliyini və qənaətcilliyini artırmaq məqsədi ilə müstəqil nəzarət mexanizmlərinin yaradılması daxil olmaqla, zəruri olan köməkçi orqanlar yarada bilər.

Beləliklə, Beynəlxalq Cinayət Məhkəməsinin təşkilati strukturunu təhlil edərək aşağıdakı nəticəyə gələ bilərik: Roma Statu-

tunda istifadə olunan Beynəlxalq Cinayət Məhkəməsi və Məhkəmə terminlərinin elmi təfsiri geniş və dar mənada başa düşülməlidir. Geniş mənada Beynəlxalq Cinayət Məhkəməsi terminini Statut əsasında yaradılmış beynəlxalq təşkilatın adı kimi və habelə bir-birlərindən müstəqil surətdə fəaliyyət göstərən iki qarşılıqlı təşkilati strukturun məcmusu kimi başa düşmək lazımdır. Bu mənada Beynəlxalq Cinayət Məhkəməsi özündə bütün orqanlarını və habelə iştirakçı-dövlətlərin Assambleyası da daxil olmaqla, məhkəmə kimi özünü ehtiva edir. Dar mənada məhkəmə yalnız öz orqanlarını ehtiva edir. Lakin bu zaman Prokuror dəftərxanası müstəqil orqan kimi fəaliyyət göstərir.

ƏDƏBİYYAT SİYAHISI:


1. Валеев Р.М. О правосубъектности Международного уголовного суда // Российский Ежегодник Международного Права. Специальный выпуск. 2003
2. Международный уголовный суд. Сборник документов. Казань: Центр инновационных технологий. 2004
3. Марусин И.С. Основные тенденции правового регулирования деятельности органов международной уголовной юстиции (на примере Международного уголовного суда и Международного трибунала по бывшей Югославии) // Российский Ежегодник Международного Права. Специальный выпуск. 2003
4. Ширева И.В, Ширева Д.А. К вопросу о деятельности Международного уголовного суда //Вопросы экономики и права. 2015, № 8
5. Cassese A. International Criminal Law. Dordrecht-Boston-London, 2001
6. Валеев Р.М. О правосубъектности Международного уголовного суда // Российский Ежегодник Международного Права. Специальный выпуск. 2003


**Summary**

Keywords: International Criminal Court, Rome Statute of the International Criminal Court, structure and administration of the Court, the Presidency, the office of the Prosecutor, an Appeals Division.

This article analyzes the organizational and legal issues of the International Criminal Court. The organizational structure of interstate association established by Statute of the International Criminal Court demonstrates its main feature as providing the functions of an international judicial body. The ICC is composed of four organs: the Presidency, the Chambers, the Office of the Prosecutor and the Registry. In the Court's structure also includes the Assembly of States Parties and its Bureau.

**Резюме**

Ключевые слова: Международный уголовный суд, Римский Статут Международного уголовного суда, состав и управление делами Суда, Президиум, Канцелярия Прокурора, Апелляционное отделение

В данной статье анализируется организационно-правовые вопросы деятельности Международного уголовного суда. Организационная структура межгосударственного объединения, созданного Статутом Международным уголовным судом отражает его основную особенность, заключающуюся в обеспечение функционирования международного судебнего органа. Суд состоит из следующих органов: Президиум; Апелляционное отделение, Судебное отделение, и Отделение предварительного производства; Канцелярия Прокурора; Секретариат. В структуру Суда так же относится Ассамблея государств-участников и ее Бюро .